# Prezidentlər arasındakı qardaşlıq münasibəti Azərbaycan-Türkiyə əlaqələrini daha da möhkəmləndirir



Martın 6-da Milli Məclisin Sədri Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü.

Türkiyə Böyük Millət Məclisinin Sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik edən Oqtay Əsədov həmkarına gələcək fəaliyyətində uğurlar arzuladı. Sədr həmçinin TBMM-in xarici əlaqələr komissiyasının Xocalı soyqırımı ilə bağlı bəyanat yaymasını yüksək qiymətləndirdi və buna görə minnətdarlığını ifadə etdi.

Oqtay Əsədov qeyd etdi ki, Türkiyə və Azərbaycan arasında yüksək strateji tərəfdaşlıq mövcuddur. Bu əlaqələrin inkişafında iki ölkənin Prezidentləri arasındakı qardaşlıq münasibəti də xüsusi rol oynayır. Bildirildi ki, indiyədək dövlətlərimiz arasında 230 sənəd imzalanıb, 30-u isə baxılmaq üzrədir.

İqtisadi əlaqələrdən söhbət açan Milli Məcisin Sədri Azərbaycanın Türkiyənin əsas investorlarından biri olduğunu vurğuladı. Qeyd olundu ki, iki ölkə arasında 2018-ci il üzrə ticarət dövriyyəsinin həcmi 3 milyard 500 min dollar olub, ancaq bu rəqəmin 10 milyarda yüksəldilməsi hədəflənir.

Görüşdə Azərbaycanın regionda həyata keçirdiyi enerji layihələri haqqında da söz açıldı.

Dövlətlərarası əlaqələrin inkişafında parlamentlərin roluna diqqət çəkən Oqtay Əsədov hər iki ölkə parlamentarilərinin beynəlxalq təşkilatlarda da həmişə eyni platformadan çıxış etdiyini söylədi.

TBMM Sədri Mustafa Şentop isə bu vəzifəyə seçilməsindən sonra ilk səfərini Azərbaycana etməsindən məmnun olduğunu bildirdi və bunun artıq siyasi ənənəyə çevrildiyini dedi.

Mustafa Şentop dövlətlərimiz arasında beynəlxalq platformada işbirliyinin daha da gücləndirilməsini arzuladı. Qeyd etdi ki, Azərbaycan Türkiyə üçün regionda ən mühüm strateji tərəfdaşdır və Türkiyə də hər zaman çalışır ki, beynəlxalq məsələlərdə Azərbaycanla birgə ortaq maraqları qorusun.

Sonda ölkələr arasındakı münasibətlərin iki xalqın rifahı naminə daha da inkişaf etdirilməsi arzulandı.

***Fərizə ƏHMƏDOVA,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.- 7 mart.- S.3.